# Əqli mülkiyyətin inkişafı müasir çağırışlar olaraq ölkəmizin də əsas məqsədlərindəndir

**Aparıcı iqtisadi sahələrdə əqli fəaliyyətin nəticələrinin təşviqi, innovasiya və yaradıcılığa dövlət dəstəyinin genişləndirilməsi, əqli mülkiyyətin üstünlük təşkil etdiyi yaradıcı iqtisadiyyatın inkişafının dəstəklənməsi müasir çağırışlar olaraq ölkəmizin əsas pioritetlərindəndir.**

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarov və Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov Ümumdünya Əqli Mülkiyyət Təşkilatının baş direktorunun müavini Hasan Kleyb ilə görüşüblər.

Görüşdə bildirilib ki, Azərbaycanda son illər ərzində elmi tədqiqat potensialı müasirləşdirilib, müasir texnologiyaların tətbiqində əqli mülkiyyətin rolu artırılıb. Ölkəmizin milli prioritetlərinin 2-si məhz Azərbaycanın dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyata, rəqabətli insan kapitalına sahib olmasını və müasir innovasiyalar məkanına çevrilməsini hədəfləyir. Hazırlanan Rəqəmsal İqtisadiyyat Strategiyasında da bilik və bacarıqların Dördüncü Sənaye İnqilabı və rəqəmsal iqtisadiyyatın tələblərinə uyğunlaşdırılması öz əksini tapıb.

Qeyd edilib ki, innovasiyaları dəstəkləyən əqli mülkiyyətin inkişafı, aparıcı iqtisadi sahələrdə əqli fəaliyyətin nəticələrinin təşviqi, peşə hazırlığının keyfiyyətinin artırılması müasir çağırışlar olaraq ölkəmizin də əsas məqsədlərindəndir və bu istiqamətdə müvafiq işlər görülür.

Hasan Kleyb əqli mülkiyyət hüquqlarının beynəlxalq səviyyədə qeydiyyatının stimullaşdırılması, effektiv patent qeydiyyatı prosedurlarının qurulması və əqli mülkiyyət hüquqları ilə bağlı məlumatlılığın artırılması barədə fikirlərini bölüşüb, ölkəmizin bu istiqamətdə əldə etdiyi nəticələri yüksək qiymətləndirib.

Görüşdə sahibkarlıq subyektləri üçün əmtəə nişanları və coğrafi göstəricilər üzrə təcrübə mübadiləsinin təşkili, əqli mülkiyyət hüquqlarının müdafiəsinin təminatının iqtisadi siyasətə çevrilməsi məsələləri müzakirə olunub.

Azərbaycan. - 2023.- 25 iyun.- S.3.